# AZƏRBAYCAN VETERANI

AZƏRBAYCAN VETERANLAR TƏŞKİLATI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

17 (69) 22 noyabr 2016-cı il — İctimai-siyasi qəzet


## İlham Əliyev Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin sədrini qəbul edib

***Prezident İlham Əliyev Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin sədri Leonid Slutskini qəbul edib.***

Dövlət başçısı Leonid Slutskini Rusiya Federasiyası Dövlət Dumasının deputatı və beynəlxalq məsələlər komitəsinin sədri seçilməsi münasibətilə təbrik etdi və Dövlət Dumasının mühüm komitələrindən birinə rəhbər təyin olunmasını ona göstərilən böyük etimad kimi dəyərləndirdi. Leonid Slutskinin Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri kimi əvvəllər Azərbaycanda dəfələrlə olduğunu vurğulayan Prezident İlham Əliyev onun həmin vəzifədə fəaliyyətinin MDB məkanında parlamentlərarası əməkdaşlığın fəal inkişafı işinə xidmət etdiyini bildirdi. Dövlətimizin başçısı əminliyini ifadə etdi ki, indiki vəzifəsində də Leonid Slutski öz işinin öhdəsindən layiqincə gələcək və Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə bundan sonra da töhfəsini verəcək. Prezident İlham Əliyev Leonid Slutskiyə gələcək fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə və təbriklərə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Leonid Slutski dedi: "Dövlət Dumasının beynəlxalq məsələlər üzrə komitəsinin sədri qismində ilk xarici səfərimi Azərbaycana etməyim mənim üçün böyük önəm daşıyır. Azərbaycan bütün istiqamətlər üzrə Rusiya Federasiyası üçün həmişə mühüm strateji tərəfdaş olub və olacaq. Bu strateji tərəfdaşlıq ildən-ilə möhkəmlənir. Sizin müdrik rəhbərliyiniz ilə ölkəniz son



illər MDB məkanından daha geniş miqyasda ən çox inkişaf edən iqtisadiyyatlardan birinə çevrilib". Leonid Slutski bildirdi ki, ölkəsi Azərbaycanın Rusiya ilə strateji, konstruktiv və effektiv tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə yönələn xarici siyasət kursunu yüksək qiymətləndirir. Heç bir xarici və daxili opponent ildən-ilə möhkəmlənən münasibətlərimizə xələl gətirə bilməz.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

## İlham Əliyev Dubay Ticarət və Sənaye Palatasının sədrini qəbul edib



Prezident İlham Əliyev Dubay Ticarət və Sənaye Palatasının sədri Məcid Saif Al Qurairi qəbul edib.

Ölkələrimiz arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı bu ilin əvvəlində Birləşmiş Ərəb Əmirliklərinə səfəri və səfər zamanı ölkə rəhbərliyi ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı. Turizm sahəsində əməkdaşlığın önəminə toxunan Prezident İlham Əliyev artıq Birləşmiş Ərəb Əmirliklərindən çoxlu sayda turistlərin ölkəmizə səfər etdiyini vurğuladı. İqtisadi sahədə əlaqələrimizin daha da genişləndirilməsinin vacib olduğunu qeyd edən Prezident İlham Əliyev bu baxımdan idxal-ixrac imkanlarının araşdırılmasının önəmli olduğunu, Azərbaycanın müvafiq qurumları tərəfindən bu sahədə fəal iş aparıldığını dedi.

Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan ilə münasibətlərə böyük önəm verdiyini vurğulayan Dubay Ticarət və Sənaye Palatasının sədri Məcid Saif Al Qurair qeyd etdi ki, Azərbaycan çox gözəl bir diyardır və buraya gələn turistlər insanların qonaqpərvərliyinin və xoş əhvali-ruhiyyəsinin şahidi olduqlarını deyirlər. O, hazırda Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin sayının artmasını məmnunluqla qeyd etdi və turizm sahəsində əlaqələrin inkişafına verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Görüşdə biznes, turizm, Azərbaycan kənd təsərrüfatı məhsullarının Birləşmiş Ərəb Əmirliklərinə ixrac imkanları, viza rejiminin daha da sadələşdirilməsi, sərmayə qoyuluşu ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2 (II kitab), maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246) aşağıdakı dəyişikliklər edilsin:

1. 38.5-ci maddə ləğv edilsin.
2. 38.6-cı və 38.7-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"38.6. Elektron vizanın verilməsi ilə bağlı müraciət qəbul edildikdən sonra ən geci 3 iş günü müddətində "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahıları üzrə yoxlama aparılır, imtina üçün əsas olmadıqda viza rəsmiləşdirilərək müraciət etmiş şəxsin elektron poçt ünvanına göndərilir. Viza verilməsindən imtina edildikdə, müraciət etmiş şəxsin elektron poçt ünvanına bu barədə məlumat göndərilir.

38.7. "ASAN Viza" sistemi elektron vizaların verilməsi və ya verilməsindən imtina ilə bağlı məlumatları, habelə elektron müraciət formasında nəzərdə tutulan məlumatları "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin "Viza" altsistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanına göndərir.".

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 11 noyabr 2016-cı il.

# 12 noyabr Azərbaycanda Konstitusiya günü kimi qeyd edilir

**Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası müstəqil Azərbaycanın ilk Konstitusiyası idi.**




1918-1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin əsas Qanununu qəbul edə bilməmişdi. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi əsasən SSRİ-nin tərkibində olduğu dövrə düşür.

Azərbaycanın birinci Konstitusiyası 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan SSR-nin 1978-ci il aprelin 21-də qəbul edilmiş son Konstitusiyası da əvvəlki konstitusiyalar kimi SSRİ Konstitusiyasına uyğunlaşdırılmış şəkildə idi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın hazırlanması zərurəti yarandı. Bunun üçün Prezident Heydər Əliyev başda olmaqla xüsusi komissiya yaradılmış, Konstitusiya layihəsi ümumxalq müzakirəsinə verilmişdi. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunub.

Həmin gündən 12 noyabr Azərbaycan Respublikasının Konstitusiya günü kimi qeyd olunur.

Müstəqil Azərbaycanın ilk Konstitusiyası Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoyub. Azərbaycanın yeni Konstitusiyası 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir.

Konstitusiyaya ilk əlavə və dəyişiklik 24 avqust 2002-ci ildə, son əlavə və dəyişikliklər isə 18 mart 2009-cu ildə referendum yolu ilə edilib.

2002-ci ildə Konstitusiyanın 22 maddəsinə 31, sonuncu dəfə isə 29 maddəyə 41 əlavə və dəyişiklik edilib.

# Milli Dirçəliş Günü

1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlandı. Moskvanın, xüsusən də SSRİ-nin rəhbəri M.Qorbaçovun buna biganə münasibətini görən ermənilər planlı şəkildə, Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular. Ermənilər azərbaycanlıları təkcə öz ev-eşiklərindən qovmayırdılar, həm də onları cismən öldürür, diri-diri yandırırdılar. Ermənilərin tarixdə görünməmiş bu vandalizminə M.Qorbaçov və onun ətrafı heç bir reaksiya vermədilər. Ermənilər bununla da kifayətlənmədilər. 1988-ci ilin fevralın əvvəllərində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ixtişaşlar törətdilər. Onlar Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirməsi haqqında məsələ qaldırdılar.

Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxdı. Xalq öz etirazını sakit şəkildə rəhbərliyə bildirdi. İlk zamanlar Azərbaycan vətəndaşları Moskvaya, yerli hakimiyyət başçılarına inanırdılar. Onların şüarları, gəzdirdikləri portret və bayraqlar bunu sübut edirdi. Ancaq, xalq gördü və başa düşdü ki, nə Moskva, nə də Azərbaycanın o vaxtki rəhbərliyi heç bir qəti tədbir görmək istəmirlər. Belə olduqda, respublikanın hər yerindən insanlar axın-axın Bakıya gəlir, Azadlıq meydanına (o vaxt V.İ.Lenin adını daşıyırdı) toplaşır, ermənilərin və Sovet hökumətinin belə münasibətinə qarşı mitinqlər keçirir, öz etirazlarını bildirirdilər. 1988-ci ilin noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında Sovet dövlətinin xalqımıza qarşı apardığı antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin sonu bilinməyən mitinqi başlandı. O, vaxt bütün xalq bir yumruq kimi düyünlənmişdi. Bu, əsl xalq hərəkatı, milli azadlıq hərəkatı idi. Dekabrın əvvəllərində sovet qoşunları tərəfindən ümumxalq mitinqi dağıdıldı. Azərbaycanda bu hadisələr milli azadlıq hərəkatı kimi qiymətləndirilir və Vətənizmin istiqlaliyyət qazanmasında da əsas amil sayılır.1992-ci ildən 17 noyabr Milli Dirçəliş Günü kimi qeyd olunur.

# "Müstəqil Dövlətlərin veteranlar (pensiyaçılar) İctimai Təşkilatları İttifaqı"nın Moskvada VI Beynəlxalq qurultayı keçirilmişdir

15 noyabr 2016-cı il tarixində Moskva şəhərində Müharibə və Silahlı Qüvvələr veteranları evində "Müstəqil Dövlətlərin Veteranlar (pensiyaçılar) İctimai Təşkilatları İttifaqı"nın VI Beynəlxalq qurultayı keçirilmişdir.

Qurultayda Azərbaycanı Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov təmsil etmişdir. C.Xəlilov ən məhsuldar illərini vətənə xidmətə həsr etmiş veteranları Azərbaycan veteranları adından salamlayaraq, Təşkilatın Rusiya Fedarasiyası, Ukrayna, Belarus, Moldova Respublikası icmaları, MDB ölkələrinin səfirlikləri ilə sıx əməkdaşlıq əlaqələri saxladığını qeyd etmiş, son illərdə MDB ölkələrinin müvafiq qurumları ilə əməkdaşlıq əlaqələrinin gücləndiyini, əməkdaşlığın daha da inkişaf etdiriləcəyini vurğulamışdır.

O, İkinci Dünya Müharibəsində faşizm üzərində qələbənin əldə olunmasında Azərbaycanın yaxından iştirakından, azərbaycanlıların qəhrəmanlığından, qanlı döyüşlərdə 300 mindən çox





soydaşımızın həyətlarını itirməsindən danışmış, bəşəriyyətin dəhşətli bəladan xilasında xalqların birgə nailiyyətinə verilən digər töhfələrdən bəhs etmişdir. C.Xəlilov həmçinin tədbir iştirakçılarının diqqətini İkinci Dünya Müharibəsinin tarixinin ermənilər tərəfindən məqsədli şəkildə saxtalaşdırılmasına, belə münasibətin yolverilməzliyinə yönəltmiş, Azərbaycanın bu məsələlərdə tutduğu qəti və obyektiv mövqeyi çatdırmışdır.

Sonda C. Xəlilov Azərbaycan Veteranlar Təşkilatı tərəfindən nəşr olunmuş "Победа и память» ("Qələbə və yaddaş") kitabını İttifaqın Rəyasət Heyətinə hədiyyə etmişdir.

Qurultayda Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev və Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov "Müstəqil Dövlətlərin Veteranlar (pensiyaçılar) İctimai Təşkilatları İttifaqı"nın Rəyasət Heyətinə yenidən üzv seçilmişlər.

SƏİDƏ ABDULLAYEVA

# Azərbaycanın hərtərəfli inkişafına dəstək olmalıyıq



**- Cəlil müəllim, ilk sualımız Təşkilatın qarşıda gözlənilən plenumu ilə əlaqədardır. Bu əvvəlcədən planlaşdırılmışdı, yoxsa hansısa zərurətlə bağlıdır? Bir də sirr deyilsə, gündəliyə hansı məsələlər çıxarılıb?**

- Respublika Veteranlar Təşkilatının plenumları Nizamnaməyə uyğun olaraq ildə bir dəfə, adətən noyabr, yaxud dekabr aylarında keçirilir. Plenumda Təşkilatın il ərzində gördüyü işlər müzakirə edilir, növbəti ildə qarşıda duran vəzifələr müəyyənləşdirilir. Növbəti plenum da bu baxımdan əvvəlkilərdən fərqlənmir. Yaratdığınız imkandan istifadə edərək noyabrın 22-də baş tutacaq həmin tədbirə Sizi də, iştirak etmək istəyən digər media nümayəndələrini də dəvət edirik.

**- 2016-cı ildəki fəaliyyətiniz barədə qısaca nə deyərdiniz?**

- Respublika Veteranlar Təşkilatının fəaliyyəti illik Tədbirlər Planına və Rəyasət Heyətinin qərarlarına uyğun olaraq əsasən bir neçə istiqamət üzrə həyata keçirilir. Əlbəttə, bizim hər il ən başlıca tədbirimiz İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həmin müharibənin iştirakçıları ilə görüşünün təşkilinə hazırlıq işləri ilə bağlı olur. 9 may 2016-cı ildə faşizm üzərində Qələbənin 71 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidentinin İkinci Dünya müharibəsi veteranları ilə görüşü baş tutmuş, dövlət başçısının adından veteranlara böyük ziyafət verilmişdir.

Bu görüşə hazırlıqla bağlı cari ildə də ölkənin orta və ali məktəblərində, o cümlədən hərbi yönümlü təhsil ocaqlarında, müxtəlif təşkilatlarda, idarə-müəssisələrdə silsilə tədbirlər keçirilmişdir. Bir qayda olaraq, həmin tədbirlərdə İkinci Dünya, Qarabağ və Əfqanıstan müharibələri veteranları, RVT, rayon veteran təşkilatları, yerli icra orqanları və ictimaiyyətin nümayəndələri, gənclər və ziyalılar iştirak edirlər. Azərbaycanın qəhrəmanlıq tarixinin, ata-babalarımızın şanlı döyüş yolunun təbliği, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onların dövlətə və xalqa sədaqət ruhunda yetişmələri məqsədi güdən belə tədbirlər istisnasız olaraq, ölkənin bütün şəhər və rayonlarında keçirilir.

Mən C.Naxçıvanski adına Hərbi Liseydə, Kaspi liseyində, Dövlət Təhlükəsizlik Xidməti, Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidmətinin Akademiyalarında, Milli Qvardiyada, Dövlət İqtisad, Odlar Yurdu, Bakı Slavyan, Qərb universitetlərində, Dövlət Uşaq Filarmoniyasında və Xalça Muzeyində baş tutan tədbirlərimizi xüsusi qeyd etmək istərdim. Əlbəttə, Təşkilatın inzibati binasında keçirilən tədbirlərimiz həm mövzu rəngarəngliyi, həm də əhatə etdiyi auditoriya baxımından daha geniş olmuşdur.

Ölkə veteranlarının Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin nümayəndələri ilə geniş tərkibdə görüşü, cəbhə xəttində Ermənistan hərbi birləşmələrinin təxribatının qarşısının alınması ilə əlaqədar “Biz Azərbaycan əsgərinə, Ali Baş Komandanımıza və parlaq qələbəmizə inanırıq”, “Multikulturalizmin Azərbaycan nümunəsi: Multikulturalizmin inkişafı və beynəlxalq platformaya çevrilməsi başlıca məqsəddir” mövzusunda Elmi - praktiki Konfrans, Bakı Slavyan Universitetinin tələbələrinin iştirakı ilə Respublika günü münasibətilə “Gənclərdə milli ruhun gücləndirilməsi” mövzusunda ədəbi-bədii gecə, dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilmiş “Azərbaycanın dövlət müstəqilliyi xalqımızın tarixi nailiyyətidir” tədbiri, İkinci Dünya müharibəsində Moldovada həlak olmuş və itkin düşmüş sayılan azərbaycanlı döyüşçülərdən 206 nəfərin taleyinin aydınlaşması münasibətilə Moldovada nəşr edilmiş xatirə kitabının təqdimatı və digər tədbirlərimiz ölkə ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmışdır.

Yeri gəlmişkən, Moldova Respublikası ərazisində Böyük Vətən müharibəsində həlak olmuş azərbaycanlılardan Bakı və Sumqayıt şəhərlərindən orduya göndərilmiş 4 nəfərin qohumları artıq tapılmışdır. Onlardan Sumqayıt şəhəri və Xəzər rayonunda yaşayan 2 nəfər RVT-də 27 oktyabr 2016-cı il tarixdə keçirilən tədbirdə iştirak etmişdir. Xatirə kitabında adları keçən digər döyüşçülərin qohumları tapıldıqca, media məlumatlandırılacaqdır.

Təşkilatımız Azərbaycan Respublikası Konstitusiyasına dəyişikliklərlə bağlı referendumun keçirilməsi tədbirlərində də fəal iştirak etmiş, bununla əlaqədar “Vətəndaş cəmiyyəti” təşviqat qrupunun yaradılmasında ilk təşəbbüskarlardan olmuşuq.

**- Veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsindəki fəaliyyətinizi qənaətbəxş saymaq olarmı?**

- Veteranların sosial müdafiəsinin gücləndirilməsi əsas fəaliyyət istiqamətlərimizdən biridir. Bu siyasətin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərin şəxsi nəzarəti altında hazırlanan “Veteranlar haqqında” Qanunun 1994-cü ildə qəbulu ilə ölkədə veteran hərəkatının yenidən dirçəldilməsi dövrü başlanmışdır. Hazırda bu siyasət Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Başlıca hədəflər və məqsəd vətənpərvər insanların yüksək statusunun daim nümayiş etdirilməsi, sosial müdafiəsinin, cəmiyyətdəki mövqeyinin gücləndirilməsi ilə vətənpərvərliyin təşviq olunmasıdır. İnamla deyə bilərik ki, bu zümrəyə aid edilən insanların, problemlərinin vaxtında həlli dövlətin həyata keçirdiyi ardıcıl və məqsədyönlü xətdir. Hər il İkinci Dünya Müharibəsi iştirakçılarına, bu müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə verilən birdəfəlik maddi yardımın həcminin artırılması (2016-cı ildə bu məbləğ 1000 və 500 manat olmuşdur), eləcə də veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsində yalnız bu il imzalanmış sərəncam və fərmanlar bu qayğının əyani sübutlarıdır. Biz bütün bunları yüksək qiymətləndirir və ona layiqincə cavab vermək üçün fəaliyyətin səmərəliliyini ildən-ilə artırmağa çalışırıq.

Bu məqsədlə veteranların yaşayış səviyyəsinin yüksəldilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, müəyyənləşdirilmiş güzəşt və imtiyazlardan faydalanmaları, asudə vaxtlarının səmərəli təşkili və s. işlər Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyi, digər dövlət orqanları, yerli icra hakimiyyətləri, və bələdiyyələrlə qarşılıqlı əlaqədə həyata keçirilir. Bir faktı qeyd edim ki, bu məsələlərlə bağlı ötən 11 ay ərzində Təşkilata daxil olmuş 100-dən artıq müraciətlə bağlı müvafiq ünvanlara məktublar göndərilmiş, problemlər əsasən həll olunmuş, ərizəçilər görülmüş tədbirlər barəsində vaxtında məlumatlandırılmışlar.

Bu il möhtərəm Prezidentin Veteranlar Təşkilatına ayırdığı vəsaitin xeyli hissəsinin yataq xəstəsi olan İkinci Dünya Müharibəsi veteranlarına çatdırılması ilə bağlı RVT Rəyasət Heyətinin qərarı ilə lazımi sənədləşdirmə işləri aparılmışdır. Artıq Bakı şəhərinin rayonları üzrə ayrılmış müvafiq maddi yardımlar əməkdaşlarımızın və yerli icra hakimiyyəti nümayəndələrinin iştirakı ilə veteranlara çatdırılmışdır. Digər rayonlar üzrə bu işlər ilin sonunadək yekunlaşacaqdır. Ölkənin 4 regionunda və Bakı şəhərində şəhid ailələrinə maddi yardımlar da eyni qaydada çatdırılmışdır.

Təşkilata hər gün müxtəlif məsələlərlə bağlı neçə veteran müraciət edir. Biz onları məmuniyyətlə dinləyir, problemlərinin həllinə kömək göstərməyə çalışırıq. Qaldırılan problemlərin həlli səlahiyyətlərimiz çərçivəsində olmadığı hallarda belə dövlət orqanları və təşkilatlar bizə imkan daxilində köməklik göstərirlər. Fürsətdən istifadə edib Təşkilat adından onlara minnətdarlığımızı çatdırıram.

Veteranların yubileylərinin keçirilməsi, sağlamlıqlarının qorunması, asudə vaxtlarının səmərəli təşkili də diqqətdə saxlanılmış, bir qrup veteran ölkənin sanatoriya-kurort müalicəsi almış, Şahdağa, Qobustana səfərləri təşkil edilmişdir.

Veteranların çoxsaylı müraciətlərini nəzərə alaraq, bəzi imtiyazların bərpası barədə müvafiq dövlət orqanlarına müraciət etməyi nəzərdə tuturuq. Zənnimcə, bu məsələnin müsbət həlli veteranların sosial müdafiəsinin daha da gücləndirilməsinə əlavə dəstək olacaqdır.

**- Təşkilatınızın nümayəndələri tez-tez cəbhə xəttində olur, xidməti borcunu şərəflə yerinə yetirən əsgər və zabitlərimizlə görüşürlər. Bu ənənəniz digər ictimai birliklərə də nümunə ola bilər.**

- Bütün ictimai təşkilatların, dövlət orqanlarının, mən deyərdim hər bir azərbaycanlının ən ümdə borcu bu gün işğal altında olan torpaqlarımızın erməni tapdağından azad edilməsi üçün bacardığını əsirgəməməsidir. Son illər Azərbaycanda güclü ordu quruluması istiqamətində atılan uğurlu addımlar bizim bu vəzifənin öhdəsindən şərəflə gələcəyimizə inamımızı daha da artırıb. Cari il aprel ayının 2-5-də erməni silahlı bölmələrinin təxribatlarının qarşısının alınması zamanı Azərbaycan əsgərinin sarsıdıcı cavab zərbəsi ilə düşmənin darmadağın olunması xalqımızın qəhrəmanlıq tarixinə yeni səhifələr yazdı. Cənubi Qafqazın ən müasir və güclü ordusu olan Azərbaycan Ordusunun ərazilərimizi düşmən işğalından qurtarmağa, ölkənin ərazi bütövlüyünü bərpa etməyə tam qadir olduğu dünyaya nümayiş etdirildi. Həmin hadisələrlə bağlı yayılan bəyanatda yaşlarının ixtiyar çağlarında olmalarına baxmayaraq, veteranlar düşmənə qarşı vuruşmağa hər an hazır olduqlarını ifadə etmişdilər. Bu qəti mövqe həmin hadisələrdən əvvəl də, sonra birbaşa cəbhə xəttində olan hərbçilərimiz qarşısında dəfələrlə səsləndirilmiş, gənclərimizin döyüş ruhunu daha da artırmışdır.

Biz Müdafiə Nazirliyi, Respublika Hərbi Prokurorluğunun müvafiq idarələrinin əməkdaşları ilə birgə cəbhə xəttində və ona yaxın ərazilərdə birgə tədbirlər keçiririk. Bu görüş və tədbirlər sırasında may ayının 19-20-də Respublika Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayevlə birgə cəbhə bölgəsinə səfərimiz xüsusilə yadda qalan oldu. Biz N saylı hərbi hissənin şəxsi heyəti ilə görüşdük. Görüşdə gənc əsgərlərimizdə döyüş, Qələbə ruhunun necə yüksək olduğunu görmək qəlbimizi dağa döndərdi. Azərbaycan əsgərinin Vətənə, xalqa, torpağa, dövlətinə olan sevgisi bizi valeh etdi. Ötən il Təşkilat nümayəndələri və veteranların Bərdə, Tərtər, Qazax, Horadiz istiqamətində döyüş rayonlarında hərbi hissələrin şəxsi heyəti ilə görüşləri təşkil olunmuşdur.

Gənc nəslin orduya hazırlanmasında yaxından iştirakı da bizim ümdə vəzifə borcumuzdur. Səfərbərlik və hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin Respublika üzrə təşkil etdiyi “Vətənin Müdafiəsinə Hazıram” adlı silsilə tədbirlər çərçivəsində bizim əməkdaşlar Daşkəsən, Qazax, Abşeron, Qaradağ, Suraxanı, Yasamal və digər rayonlarda keçirilən tədbirlərdə fəal iştirak edilmişlər.

Biz bu il Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə “Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!” adlı layihə çərçivəsində ölkənin 4 regionunda və Bakı şəhərində seminar-müşavirələr keçirdik. Bu tədbirlərin əsas məqsədi xalqımızın qəhrəmanlıq tarixində mühüm xidmətləri olan Azərbaycan övladlarının keçdiyi şərəfli həyat yolunun yeniyetmə və gənclərə daha yaxından tanıdılması, onlarda xalqına, dövlətinə sədaqət, tarixinə hörmət hissi aşılanması, vətənpərvərlik ruhunun gücləndirilməsi, həmçinin, bu istiqamətdə dövlət orqanlarının apardığı işə dəstək verilməsidir.

Biz bunlarla yanaşı düşmənin əsl simasının, işğalçılıq siyasətini davam etdirməsinin ifşası, yerli və dünya ictimaiyyətinin bu barədə müntəzəm məlumatlandırılması istiqamətində də ardıcıl iş aparırıq. Belə tədbirlərdən biri cari ilin iyununda Təşkilatın inzibati binasında keçirilmişdir. Həmin tədbirdə II Dünya Müharibəsində alman faşizminə xidmət etmiş ermənilərdən ibarət qisasçı legionun yaradıcıları general Dronun və Qaregin Njdenin MDB məkanında genişmiqyaslı təbliğatına, onların qəhrəman kimi təqdim edilməsinə, barələrində filmlərin çəkilməsinə, Yerevanda abidələrinin qoyulmasına veteranların etirazını əks etdirən müraciət qəbul edilmiş, MDB dövlətlərinin başçılarına, parlamentlərinə, beynəlxalq təşkilatlara, veteran təşkilatlarına göndərilmişdir. Müraciətə Rusiya Federasiyası, Ukrayna, Belarus və Qazaxstanın dövlət orqanlarından, ictimai təşkilatlardan ermənilərin həmin hərəkətlərini qınayan cavablar gəlmişdir. Yeri gəlmişkən, Azərbaycan veteranlarının bu, eləcə də Ermənistanın torpaqlarımızı işğal altında saxlamasına etirazlarının yer aldığı mövqeyi Veteran Təşkilatlarının MDB çərçivəsində baş tutan tədbirlərində də dəfələrlə ifadə edilmişdir.

**- Sonuncu qeydinizə istinadən Təşkilatın beynəlxalq əməkdaşlıq əlaqələri barədə soruşmaq istərdik. Bu əlaqələrin indiki səviyyəsi Sizi qane edirmi?**

- Respublika Veteranlar Təşkilatının beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi məqsədi ilə AR Diasporla iş üzrə Dövlət Komitəsi və Xarici İşlər Nazirliyi ilə əlaqələrimiz intensivləşmişdir. RVT-nin beynəlxalq əlaqələrinin yeni keyfiyyət səviyyəsinə qaldırılması zərurəti nəzərə alınaraq, bu sahəyə cavabdeh şöbə yaradılmışdır. Hazırda Gürcüstan, Türkiyə, Ukrayna, Moldova, Rusiya Federasiyası və Belarus Veteranlar Təşkilatları ilə qarşılıqlı əlaqələrimiz xüsusilə genişdir. Bu təşkilatların tədbirlərinə daim dəvət alır, həmçinin onları öz tədbirlərimizə dəvət edirik. Hər il alman faşizmi üzərində Qələbənin ildönümü ərəfəsində MDB dövlətlərin Bakıdakı səfirliklərinin keçirdikləri tdbirlərdə iştirak edirik. Bu ilin mayında Respublika Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində Ukraynanın faşizm işğalından azad olunmasında iştirak edən azərbaycanlı döyüşçülərə xatirə medalları təqdim edildi. Mərasimdə çıxış edən Ukraynanın Azərbaycandakı səfiri cənab Aleksandr Mişenko bildirdi ki, Ukrayna Prezidentinin sərəncamı ilə 316 nəfər azərbaycanlı veteran döyüşçü medallarla təltif olunmuşlar. Eləcə də, digər MDB dövlətlərinin xatirə medalları azərbaycanlı döyüşçülərə təqdim edilmişdir. Bu, xalqlarımız arasında dostluq əlaqələrinin qorunduğunu göstərir. Ayrı-ayrı tanınmış veteranların yubileyləri ilə əlaqədar qarşılıqlı təbriklərin göndərilməsi də mütəmadi xarakter daşıyır.

Əməkdaşlarımız Qələbənin 71 illiyinə həsr olunmuş “Победа и Память” kitabının nəşrində fəal iştirak etmiş və həmin kitab 9 may Qələbə günündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təqdim olunmuşdur.

Bu ilin iyun və sentyabr aylarında Ukrayna veteranları təşkilatının dəvəti ilə Kiyev və Moskva şəhərlərində tədbirlərdə iştirak etmişik. Oktyabr ayında isə Türkiyənin Müharibə Veteranları Dərnəyinin Qars vilayəti üzrə nümayəndə heyəti Bakıya səfər etmişdir. Onların Təşkilatın rəhbərliyi, AR Müdafiə Nazirliyi və Türkiyənin ölkəmizdəki səfirliyinin rəsmiləri və Müdafiə Nazirliyinin H.Əliyev adına Hərbi Məktəbinin kursantları ilə görüşləri təşkil olunmuş, qonaqlar Bakının tarixi yerləri və ölkənin muzeyləri ilə tanış edilmişlər.

Sentyabr ayında Rusiya Federasiyası Silahlı Qüvvələri Veteranları Təşkilatının sədri, ordu generalı Viktor Yermakov RVT-də olmuş, burada yaradılan şəraitdən, veteranlara göstərilən dövlət qayğısından bütün MDB ölkələrinin nümunə götürməli olduğunu bildirmişdir.

Hər il 9 may ərəfəsində Avstriyanın paytaxtı Vyanada yerləşən beynəlxalq “Qara Xaç” cəmiyyətinin üzvləri və Almaniyadan gələn qonaqlar Bakı, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərində İkinci Dünya müharibəsində əsir düşmüş və vəfat etmiş insanların dəfn edildikləri qəbirstanlıqlara ziyarətləri təşkil olunur.

**-Çoxsaylı tədbirləri, eləcə də, fəaliyyətinizin digər istiqamətləri üzrə işləri ölkə ictimiyyətinə lazımınca çatdıra bilirsinizmi?**

- RVT-nin orqanı olan “Azərbaycan Veteranı” qəzeti tədbirlərimizi, eləcə də, fəaliyyətimizi kifayət qədər işıqlandırır. Bu sahədə ölkə KİV-nin, xüsusilə AzTV, İctimai, Lider, “SPACE”, “Xəzər” televiziyalarının, AzərTAC-ın, digər informasiya agentliklərinin, “Azərbaycan”, “Xalq qəzeti”, “Respublika”, “Ədalət” və digər qəzetlərin bizə göstərdikləri köməyini minnətdarlıqla qeyd etmək istərdim.

Təşkilatın tarixi və azərbaycanlıların İkinci Dünya müharibəsində iştirakı ilə bağlı dərc edilmiş kitab da ictimaiyyətin məlumatlandırılması sahəsində az rol oynamamışdır.

Biz digər ölkələrin Bakıda yerləşən daimi müxbir postlarının imkanlarından da təbliğat işinin qurulmasında yararlanmağa çalışırıq.

Fəaliyyətimizin səmərəli qurulmasında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin veteranlara və Təşkiltımıza göstərdiyi qayğı və diqqətin mühüm rol oynadığını xüsusi vurğulamaq istərdim.

**- Son vaxtlar bəzi saytların Təşkilatla bağlı hansısa mənbələrə istinadən yaydıqları məlumatlarda bəzi qüvvələrin rəhbərliyin dəyişdirilməsinə cəhd göstərdikləri bildirilir. Bu barədə nə deyərdiniz?**



- Biz həmin məlumatların yalan və böhtan xarakteri daşıdığını, sədrin səhətinin hazırda normal olduğunu bəyan etməklə, həmin saytları dəqiqləşdirilməmiş informasiyaları tirajlamaqdan uzaq olmağa çağırmışdıq. Ancaq buna baxmayaraq, bəziləri eyni missiyanı nəinki davam etdirdilər, hətta digər İctimai Təşkilatların üzvlərini də öz yalanlarına ortaq etməyə çalışdılar. Biz yenə dözüm nümayiş etdirib həmin saytların təmsilçilərini də ayın 22-də keçiriləcək Plenumumuza dəvət edirik. Qoy onlar şər və böhtan yaymaqdansa, İkinci Dünya, Əfqanıstan və Qarabağ müharibələri veteranlarının nə düşündükləri barədə birbaşa onların özlərindən eşitsinlər. Bizsə yalnız onu bir daha vurğulayırıq ki, Respublika Veteranlar Təşkilatı öz fəaliyyəti, yaxud ona aidiyyatı olan istənilən məsələ ilə bağlı mediaya daim açıqdır.

**- Aldığımız məlumata görə gələn il Respublika Veteranlar Təşkilatının 30 illik yubileyi keçiriləcəkdir. Bununla bağlı qərar varmı?**

- Əvvəla onu deyim ki, 30 il bundan qabaq fəaliyyətə başlayan Respublika Veteranlar Təşkilatının ilk sədri yaxın günlərdə 95 illik yubileyini keçirdiyimiz general-mayor, sərhədçi Mustafa Nəsirov olmuşdur. Bəli, 30 illiklə bağlı müvafiq tədbirlər planı hazırlanmışdır. Plana əsasən yubiley münasibətilə təşkilat və müəssisələrdə, xüsusilə təhsil ocaqlarında tədbirlərin keçirilməsi, ölkə KİV-ində müvafiq məqalə, veriliş və çıxışların təşkili, Təşkilatın tarixinə aid kitabın yazılıb çap etdirilməsi, sənədli filmin çəkilməsi, mədəni-kütləvi, o cümlədən müxtəlif ölkələrin veteran təşkilatları ilə əlaqələr çərçivəsində birgə tədbirlərin təşkili və s. işlər görüləcəkdir.

**- Gələcək palanlarınız barədə nə deyərdiniz?**

- Bu barədə bir neçə gün sonra baş tutacaq tədbirimizdə danışacağıq. Ancaq ümumən onu deyə bilərəm ki, biz fəaliyyətimizin səmərəsini artırmaq, ictimaiyyətin daha geniş təbəqələrini əhatə etmək üçün mövcud iş mexanizmlərini daha da təkmilləşdirməyi nəzərdə tuturuq. Bir milyondan artıq veteranı təmsil edən Təşkilatın fəaliyyəti daim yüksək səviyyədə olmalı, doğma Azərbaycanın hərtərəfli inkişafına töhfə verməlidir.

**MEHPARƏ ƏLİYEVA**

# ƏMƏKDAR MÜƏLLİM MEHRAN ƏHMƏDQIZI

**Nəzər salsaq gələcəyə, keçmişə,**
**O, bəxş edib hər yetənə bir peşə.**
**Böyük aqillər də deyib həmişə:**
**Ən şərəflib bir addır müəllim!..**

"Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq" layihəsi çərçivəsində Şirvan rayonuna səfərimiz reallaşdı. Səfər çərçivəsində Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində tədbirimiz baş tutdu. Tədbirdən sonra Mehran müəllimə və xüsusən də tələbələr canfəşanlıqla bizi tarix kabinetinə dəvət etdilər. Biz kollektivimizlə mükəmməl şəkildə tərtib olunmuş bir otağa daxil olduq. Otağın hər yerində Azərbaycan vardı. Ölkəmizin tarixi, tarixi şəxsiyyətləri, qan yaddaşı hər mövzu divarlarda əks olunmuşdu. Tarix dərsi idi, Maliyyə işi fakültəsinin tələbələri Mehran müəllimləni dinləyirdilər. Ayağa qalxıb bizi salamladılar. Mehran müəllimə bizə dərs prosesindən danışdı, otaqla tanış etdi. Eyni zamanda pul kolleksiyasını, xəritələri, infoqrafikaları göstərdi, vətənpərvər ruhda musiqi dinlətdi.

Daha sonra Mehran müəllimə ilə söhbət etmək şansımız oldu və bəzi informasiyalar öyrəndik ki: O, 1974-cü ildə 10 saylı orta məktəbi əla qiymətlərlə bitirmişdir. 8-ci sinifdə oxuyarkən "İşıq" qəzetində ştatdankənar müxbir olmuşdur. Sonra Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuş, "Əla təhsilə görə" nişanı ilə təltif edilmişdir. 1979-cu ildə universiteti Fərqlənmə diplomu ilə bitirmiş və təyinatla Şirvan şəhər 13



saylı orta məktəbdə fəaliyyətə başlamışdır. 1986-cı ildə " Baş müəllim" adına layiq görülmüşdür. Eyni zamanda "İlin ən yaxşı tarix müəllimi" və "Gülbala Şıxbala oğlu" adına mükafatların laureatıdır.

Bu yaxınlarda Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin tarix müəllimi Mehran Əhmədqızı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə «Əməkdar müəllim» fəxri adına layiq görülmüşdür. Bu hadisəyə həm Şirvan Təhsil şöbəsi, həm də kollecin rəhbərliyi və şagirdləri bu hadisəyə çox sevinmişlər. Şirvan Təhsil şöbəsinin müdiri Vəli Ələkbərov çıxışlarının birində deyir ki: «Şirvan Təhsil şöbəsinin tarixində ilk dəfədir ki, müəllim birinci attestasiya dövründə Baş müəllim adı almışdır. Bu fəxri ada şəhər 13 saylı orta məktəbin müəllimi Mehran Əhməd qızı layiq görülmüşdür".

Mehran Əhmədqızı Şirvan Dövlət iqtisadiyyat və Humanitar Kollecində işlədiyi dövr ərzində pedaqoji kollektivin, rəhbərliyin, tələbələrin böyük hörmət və məhəbbətini qazanmışdır. Kollecin tərbiyə işləri üzrə direktor müavini Rasim Xəlilov deyir ki, "Mehran müəllimə aldığı əməkdar müəllim fəxri adına Mehran Əhmədqızı keçdiyi həyat yolu, pedaqoji fəaliyyəti, yüksək savadı və ləyaqətli həyat tərzi ilə sözün əsl mənasında layiqdir. O, bir tarix müəllimi, ölkəmizin və dünyanın tarixinə yaxşı bələd olan, müasir dövrdə dünyada baş verən mühüm tarixi prosesləri səriştəli təhlil etmək bacarığına malik bir müəllim kimi onu tanıyanların çox böyük hörmətini qazanmışdır. O, öz peşəsini sevən və sözün həqiqi mənasında onu başqalarına da aşılamağı bacaran bir pedaqoq-müəllimdir. Onun uzun illər böyük zəhmət və qabiliyyət hesabına yaratdığı tarix kabineti təkcə kollec üçün deyil, bütün təhsil müəssisələri üçün bir nümunədir, tarix fənnini tədris etməyin ən optimal və səmərəli məkanıdır. O tarix fənnini tələbə-gənclərə sevdirməyi bacaran zəhmətkeş müəllim, təcrübəli pedaqoqdur".

Qeyd edək ki, Mehran Əhmədqızı müəllimlik sənəti ile yanaşı həm də bir publisist, yazıçı kimi də tanınır. O cümlədən, Mehran Əhmədqızının bir-birinin ardınca yazılan bu kitabları oxucuların böyük rəğbət və marağına səbəb olmuşdur:

2007 - ci ildə " Sənsiz... qalsa da bu dünya";

2009 - cu ildə " O səs



təkrar olmayacaq ... ";

2011 - ci ildə " Bir dəfə yaşayırıq ... Hərəmiz bicə dəfə";

2014 - cü ildə " Əfsanəvi möcüzələr ".

Müəllifin insan həyatının, düşüncə və fikirlərinin, duyğularının müxtəlif aspektlərini əks etdirdiyi bu kitablar öz orijinal təqdimatları ilə diqqəti cəlb edir.

Mehran müəllimə "Unudulmaz nəğməkar" adlı esse yazmışdır. "Ulu öndər Heydər Əliyevə həsr etdiyi bu essesindən Azərbaycan Respublikasınm Mədəniyyət və Turizm Nazirliyinin 25.05.2011 - ci il tarixli məktubuna əsasən müvafıq tədbirlərdə istifadə olunmasına icazə verilmişdir. Habelə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr etdiyi "İlham zəkasının qələbəsi" adlı essesindən Azərbaycan Respublikası Təhsil Nazirliyinin 17.08.2015 - ci il tarixli məktubuna əsasən uyğun tədbirlərdə istifadə olunmasına icazə verilmişdir.

Tələbələr tərəfindən çox sevilən və əsil müəllim adına layiq olan Mehran Əhmədqızının «Əməkdar müəllim» fəxri adını alması münasibəti ilə ürəkdən təbrik edir, ona pedaqoji fəaliyyətində və yaradıcılığında müvəffəqiyyətlər arzulayırıq.

SƏİDƏ ABDULLAYEVA

# BÖYÜK VƏTƏN MÜHARİBƏSİ VETERANLARININ DOSTU POLKOVNİK RƏSUL QULİYEV

Polkovnik Rəsul Quliyev Hərbi Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Masallı Rayon Şöbəsinin rəisidir. Zahirən baxanda birmənalı şəkildə demək olar ki, bu məsələlərin içində olan hərbi vəzifəli şəxs kimi müharibə veteranları ilə ( istər Böyük Vətən, istərsə də Qarabağ müharibəsi)) maraqlanmaq, onların qayğısına qalmaq onun əsas vəzifələrindən biridir. Rəsul Quliyev rayon veteranları təşkilatına bütün işlərimizdə yaxından köməklik göstərir. O veteranlarımızın dostudur.

Mən, polkovnik Rəsul Quliyevi təkcə hərbi vəzifə tutan şəxs kimi deyil, həm də bir ziyalı insan kimi həmişə yaşlıların, xüsusilə isə yaşı 90-dan da yuxarı olan müharibə veteranlarına diqqəti ilə fərqlənən zabit kimi dəyərləndirirəm. Polkovnik Rəsul Quliyev özü də Qarabağ müharibəsi veteranıdır. Elə buna görə də onun Böyük Vətən müharibəsi iştirakçılarına, Qarabağ müharibəsi



veteranlarına xüsusi münasibəti vardır.

Bu qəbildən olan şəxslərin dünyalarını dəyişmələri, necə deyərlər "qaş ilə göz" arasındadır. Elə bunu nəzərə alan Rəsul Quliyev ilk tanışlığımız zamanı mənə bildirdi ki, bu insanlarla əlaqəli nə olsa mənə bildir və əlimdən gələni edərəm. Veteranların yübileylərində, hüzrlərində şəxsən iştirak edir. Qeyd edim ki, komissarın yerlərdə bu şəkildə iştirak etməsinin böyük tərbiyəvi əhəmiyyəti vardır və hərbi çağırış yaşında olan gənclərin həqiqi hərbi xidmətdən yayınma hallarının qarşısının alınmasına müsbət təsir göstərir. Rəsul müəllim deyir: "Hər yeni çağırışda görünür ki, artıq gənclərimizin Vətənə bağlılığı gün bə gün artır. Bu məni çox sevindirir."

Veteranlarımız Rəsul müəllimə uğurlar diləyirlər.

***MƏMMƏDAĞA ŞİRİYEV,***
***Masallı rayon Veteranları Təşkilatının sədri***

AZƏRBAYCAN VETERANI

# İkinci Dünya müharibəsində həlak olmuş, Moldovada məzarları tapılan 206 azərbaycanlının siyahısı

***Siyahıda hər bir azərbaycanlının ardıcıl olaraq rütbəsi,adı, soyadı, atasının adı, doğulduğu yer, doğum və ölüm tarixi, dəfn yeri göstərilmişdir.***

1. Çavuş Matveyev Valentin Fyodoroviç (Bakı) 1919 - 1941, Kişinyov

2. Baş texnik-leytenant Mixels Valeriy Borisoviç (Bakı) 1923 - 1944, Belçı.

3. Mühəndis-kapitan Mustafabəyli Ədhəm Hacıbəy oğlu (Bakı) 1906 - 1944, Tiraspol.

4. Sıravi Rubanov İvan Pavloviç (Bakı) 1903 - 1944, Tiraspol.

5. Sıravi Yusibov Aslan (Bakı) 1918 - 1944, Bender.

6. Abbasov Əziz Qulam oğlu (Masallı, Şaturoba) 1922 - 1944, Bender.

7. Əliyev Ziyadxan 1917 - 1944, Bender.

8. Kiçik leytenant Petunin Pavel Qriqoryeviç 1918 - 1944 Bender.

9. Sıravi Əliyev Allahverdi Heydər oğlu (Cəbrayıl, Aşağı Veysəlli) 05.07.1944 Butor kəndi, Qriqoriopol rayonu.

10. Sıravi Əliyev Bəşir Ağababa oğlu (Bakı) 18.04.1944 Butor kəndi, Qriqoriopol rayonu.

11. Kiçik çavuş Əliyev Camal Nəsib oğlu (Goranboy) 1900 - 1944 Butor kəndi, Qriqoriopol rayonu.

12. Çavuş Əliyev Rəhman Qəhrəman oğlu (Qəbələ, Vəndam) 1911 - 1944 Butor kəndi, Qriqoriopol rayonu.

13. Sıravi Əliyev Səftər Heydər oğlu (Naxçıvan) 1901 - 1944 Butor kəndi, Qriqoriopol rayonu.

14. Sıravi Hüseynov Bəybala Əbdül oğlu (Bakı) 1924 - 1944 Butor kəndi, Qriqoriopol rayonu.

15. Sıravi Hüseynov Qurban İsgəndər oğlu (Bakı) 1924 - 1944 Butor kəndi, Qriqoriopol rayonu.

16. Baş leytenant Məmmədov Məmmədhüseyn (Şəki, Baş Göynük) 1901 - 1944 Butor kəndi, Qriqoriopol rayonu.

17. Kiçik çavuş Məcidov Forman (Xaçmaz) 1911 - 1944 Butor kəndi, Qriqoriopol rayonu.

18. Yefreytor Rzayev Muxtar 1917-1944 Butor kəndi, Qriqoriopol rayonu.

19. Baş çavuş Səmədov Musa Hacıəli oğlu (Bakı) 1916-1944 Butor kəndi, Qriqoriopol rayonu.

20. Sıravi Həsənov Muxtar Səlim oğlu (Bakı) 1896-1944 Butor kəndi, Qriqoriopol rayonu.

21. Leytenant Mirzəyev Əlinəzər Əli oğlu (Ağdam, Xındırıstan) 1919 - 1944 Qriqoriopol rayonu.

22. Sıravi Avilov Vladimir Qoergiyeviç (Bakı) 1909 - 1944 Malaeşti kəndi, Qriqoriopol rayonu.

23. Gizir Axundov Vəliyulla Rəhim oğlu (Ağstafa) 1913 - 1944 Taşlık kəndi, Qriqoriopol rayonu.

24. Gizir Bondarenko Konstantin Mixayloviç (Gəncə) 1911 - 1944 Taşlık kəndi, Qriqoriopol rayonu.

25. Baş leytenant Dadaşov Bəhram Əli oğlu (Bakı) 1913 - 1944 Taşlık kəndi, Qriqoriopol rayonu.

26. Çavuş Kravçenko Mixail Fyodorviç (Sabirabad) 1911 - 1944 Taşlık kəndi, Qriqoriopol rayonu.

27. Leytenant Əfəndiyev Akif Ələddin oğlu (Bakı) 1912 - 1944 Taşlık kəndi, Qriqoriopol rayonu.

28. Baş çavuş Abbasov Əhməd İsmayıl oğlu (Gəncə) 1921 - 1944 Teya kəndi, Qriqoriopol rayonu.

29. Çavuş Əhmədov Əli Sahib Kazım oğlu (Bakı, keçmiş Xrebtovıy küçəsi) 1901 - 1944 Teya kəndi, Qriqoriopol rayonu.

30. Sıravi Babayev Hüseyn Sadıq oğlu (Naxçıvan) 1907 - 1944 Teya kəndi, Qriqoriopol rayonu.

31. Sıravi Hüseynov Məmmədulla Həsən oğlu (Şabran) 1907 - 1944 Teya kəndi, Qriqoriopol rayonu.

32. Sıravi Qurbanov Mikayıl Oruc oğlu (Ağstafa, Köçəsgər) 1921 - 1944 Teya kəndi, Qriqoriopol rayonu.

33. Sıravi Mustafayev Əsgər Əli oğlu 1910 - 1944 Teya kəndi, Qriqoriopol rayonu.

34. Sıravi Qarayibov Əbdül (Ağstafa, Qıraq Kəsəmən) 1907 - 1944 Tokmazeya kəndi, Qriqoriopol rayonu.

35. Melexov Aleksandr İvanoviç (Bakı) 1924 - 1944 Şipka kəndi, Qriqoriopol rayonu.

36. Çavuş Quliyev Rəşid (Bakı) 1925 - 1944 "Üzüm" sovxozu, Qriqoriopol rayonu.

37. Sıravi Səmədov Məhəddin (Xaçmaz) 1912 - 1944 Moşana kəndi, Dondyşan rayonu.

38. Baş çavuş Əliyev Dəmir (Şəmkir) 1915 - 1944 Dubossar rayonu.

39. Sıravi İsmayılov Rəsul Məmməd oğlu (Göyçay) 1944 Dubossar rayonu.

40. Sıravi Məmmədov Məmməd (Ağdam) 1907 - 1944 Dubossar rayonu.

41. Sıravi Muradov Murad Abbas oğlu (Cəbrayıl) 1904 - 1944 Dubossar rayonu.

42. Baş çavuş Abdulaev Yakov Rustoveneviç 1921 - 1942 Koşniça kəndi, Dubossar rayonu.

43. Sıravi Həsənov Qulu (İmişli) 1904 - 1944 Koşniça kəndi, Dubossar rayonu.

44. Əsgər Visa (Şəmkir) 1899 - 1944 Markauç kəndi, Dubossar rayonu.

45. Şukurov Soyfedun Akalieviç (Quba, Nügədi kəndi) 1920 - 1944 Ustye kəndi, Dubossar rayonu.

46. Baş çavuş Tançirev Aleksandr İvanoviç (Bakı) 1910 - 1944 Kalaraş şəhəri.

47. Sıravi Salayev İl-fat (Ələt) 1925 - 1944 Reden kəndi, Qalaraş rayonu.

48. Sıravi Avdeev Petroviç (Bakı, Zabrat) 1914 - 1944 Plop-Ştyubey kəndi, Kauşan rayonu.

49. Sıravi Qavriş Stepan Nikolayeviç (Bakı) 1912 - 1944 Plop-Ştyubey kəndi, Kauşan rayonu.

50. Sıravi Hacıyev Hidayət Qədir oğlu(Ucar, Məlikballı) 1913 - 1944 Kirkaeşt kəndi, Kauşan rayonu.

51. Baş çavuş Qaryağdı Adil Bilal oğlu (Cəbrayıl) 1908 - 1944 Kirkaeşt kəndi, Kauşan rayonu.

52. Baş çavuş Məmmədov Cümə Muxtar oğlu (Kürdəmir, Cəlayir) 1922-21.08.1944 Kirkaeşt kəndi, Kauşan rayonu.

53. Məmmədov Dostəli Canməmməd oğlu (Bakı) 1911 - 1944 Kirkaeşt kəndi, Kauşan rayonu.

54. Baş çavuş Şixəliyev Həsrət (Ucar, Quləbənd) 1944 Kirkaeşt kəndi, Kauşan rayonu.

55. Sıravi Abdullayev Umud İmiroviç (Şamux) 1923-08.08.1944 Kopanka kəndi, Kauşan rayonu.

56. Yefreytor Qurbanov Qurban Nurəli oğlu (Cəbrayıl) 1920-1944 Kopanka kəndi, Kauşan rayonu.

57. Sıravi Məmmədov Nazim Əkbər oğlu 1914-1944 Kopanka kəndi, Kauşan rayonu.

58. Sıravi Puxov Pavel Vasileyviç 1906-1944 Kopanka kəndi, Kauşan rayonu.

59. Sıravi Rotkin İvan M. (Bakı) 1910-1944 Kopanka kəndi, Kauşan rayonu.

60. Baş çavuş Süleymanov Məmməd Ömər oğlu 1918-1944 Kopanka kəndi, Kauşan rayonu.

61. Sıravi Şükürov Şükür Murad oğlu (Şamaxı) 1910-1944 Kopanka kəndi, Kauşan rayonu.

62. Sıravi Valkov Stepan Sergeyeviç 1902-1944 Leontyev kəndi, Kauşan rayonu.

63. Sıravi Cabbarov Məmməd Əlibaba oğlu (Sabirabad) Leontyev kəndi, Kauşan rayonu.

64. Sıravi Əbdürrəhmanov Əbdül Kərim oğlu (Ağdam) 1915-1944 Tenetar kəndi, Kauşan rayonu.

65. Çavuş Həsənov Cəfər Dəmir oğlu (Goranboy, Tap Qaraqoyunlu) 1916-1944 Tenetar kəndi, Kauşan rayonu.

66. Sıravi Məhərrəm Məmməd oğlu (Goranboy) 1925-1944 Tenetar kəndi, Kauşan rayonu.

67. Sıravi Quliyev Turbende (Ağcabədi) 1898-1944 Tenetar kəndi, Kauşan rayonu.

68. Sıravi Quliyev Turbinda (Yevlax) 1898-1944 Tenetar kəndi, Kauşan rayonu.

69. Çavuş Orlov İvan Nikiforoviç (Bakı) 1907-1944 Tenetar kəndi, Kauşan rayonu.

70. Çavuş Rzayev Oruc (Corat) 1921-1944 Tenetar kəndi, Kauşan rayonu.

71. Baş çavuş Paşayev Paşa Kərim oğlu (Cəbrayıl) 1909-1944 Tenetar kəndi, Kauşan rayonu.

72. Sıravi Abbasov Vəli Abbas oğlu (Mərdəkan) 1914-1944 Hacimus kəndi, Kauşan rayonu.

73. Çavuş Bayramov Mikayıl Mustafa oğlu (Şəmkir) 1913 - 21.08.1944, Hacimus kəndi, Kauşan rayonu.

74. Sıravi Burov İvan Yemelyanoviç (Bakı) 1907-1944 Hacimus kəndi, Kauşan rayonu.

75. Çavuş Həsənov Sədiyar Əsgər oğlu (Kürdəmir) 1919-1944 Hacimus kəndi, Kauşan rayonu.

76. Sıravi Qorelikov Mixail Nikolayeviç 1925-1944, Hacimus kəndi, Kauşan rayonu.

77. Sıravi Qurbanov İsamalı Dunyamalı oğlu (Zəngilan), Hacimus kəndi, Kauşan rayonu.

78. Sıravi Cavadov Əmir Əli Qurban oğlu (Qonaqkənd) 1908-1944, Hacimus kəndi, Kauşan rayonu.

79. Sıravi Zərbəliyev Hacıbaba (Masallı, Boradigah) 1925-1944, Hacimus kəndi, Kauşan rayonu.

80. Çavuş Zaxarov Vladimir İvanoviç (Bakı) 1915-1944, Hacimus kəndi, Kauşan rayonu.

81. Sıravi Kərimov Mövlud (Dərbənd) 1922-1944, Hacimus kəndi, Kauşan rayonu.

82. Sıravi Kərimov Şahbaba İbad oğlu (Qusar, Köhnə Xudat) 1914-1944, Hacimus kəndi, Kauşan rayonu.

83. Çavuş Kolosov Nikita Nikolayeviç (Bakı) 1904-1944, Hacimus kəndi, Kauşan rayonu.

84. Sıravi Kotlyarskiy Lazar Moiseyeviç (Bakı, keçmiş Montin qəs) 1912-1944, Hacimus kəndi, Kauşan rayonu.

85. Sıravi Kulişov İmira Jatoviç 1924-1944, Hacimus kəndi,Kauşan rayonu.

86. Sıravi Qurbanov Nurulla (Şamaxı) 1924-1944, Hacimus kəndi, Kauşan rayonu.

87. Sıravi Məmmədov Ağahüseyn (Mərdəkan) 1915-18.08.1944, Hacimus kəndi, Kauşan rayonu.

88. Sıravi Mustafayev - Oruc oğlu (Şəmkir, Abbaslı k.) 1925-1944, Hacimus kəndi, Kauşan rayonu.

89. Sıravi Nemətov İbrahim (Bakı, Güzdək kən.) 1904-1944, Hacimus kəndi, Kauşan rayonu.

90. Çavuş Pytiqorskaya İzabella Mixaylovna (Bakı, keçmiş Zevin küç. 2), 1925-1944, Hacimus kəndi, Kauşan rayonu.

91. Sıravi Ruxman Aleksey Efimoviç (Bakı) 1925-1944, Hacimus kəndi, Kauşan rayonu.

92. Gizir Səfərov Rafiq Sadıq oğlu (Bakı) 1915-23.08.1944, Hacimus kəndi, Kauşan rayonu.

93. Sıravi Süleymanov Məmmədhüseyn Kazım oğlu (Xaçmaz) 1924-1944, Hacimus kəndi, Kauşan rayonu.

94. Sıravi Əhmədov Ömər Hüseyn oğlu (Ağdaş) 1922-1944, Kriulyan rayonu.

95. Sıravi Qasımov Umud (Kürdəmir) 1923-1944, Jevren kəndi, Kriulyan rayonu.

96. Sıravi Klimayev Fidot İvanoviç, 1944, Jevren kəndi, Kriulyan rayonu.

97. Sıravi Rəşidov Malik (Şəki) 1925-1944, Jevren kəndi, Kriulyan rayonu.

98. Baş çavuş Həsənov Eyyub Musa oğlu (Şuşa) 1921 - 1944, Jevren kəndi, Kriulyan rayonu.

99. Sıravi Zərifov Hafiz (Bakı) 1918-1944, Leov rayonu.

100. Baş çavuş Pokrovskaya Mariya Filipovna (Bakı) 1920-1944, Leov rayonu.

101. Sıravi Şukurov Qaydaş Maliçeviç (Buzovna) 1923-1944, Leov rayonu, Tomay kəndi.

102. Antaqlanov Denema Muradoviç 1913-1944, Novo-Anenskiy rayonu.

103. Sıravi Hacıyev Fərrux (Gəncə), 1905-1944, Varniça kəndi.

104. Çavuş Quliyev Əsgər Qurban oğlu (Bakı, keçmiş Razin qəs.) 1922-1944, Varniça kəndi.

105. Sıravi Protopopov Vladimir Fedoroviç (Bakı) 1918-1944, Varniça kəndi.

106. Sıravi Şahbabayev Alaverdi (Qusar Laza kən.) 1920-1944, Varniça kəndi.

107. Sıravi Lavrentyev Semen Evdokimoviç (Xızı), 1905-1944, Kalfa kəndi.

108. Baş çavuş Osmanov Məmməd Əhməd oğlu (Gəncə) 1923-1944, Novo-Anen rayonu.

109. Sıravi Qasımov Əşrəf Süleyman oğlu (Şuşa) 1894-1944, Novo-Anen rayonu.

110. Sıravi Ağadadaş Dadaş (Şabran) 1919-1944, Novo-Anen rayonu.

111. Sıravi Əliyev Kamil (Quba, Qəçrəş kə.) 1944, Novo-Anen rayonu.

112. Çavuş Qolopuzov Vasiliy Dmitriyeviç (Ağdaş)1913-10.05.1944, Novo-Anen rayonu.

113. Sıravi Kamzonov Mamot Marsouloviç (Şəki) 1925-10.05.1944, Novo-Anen rayonu.

114. Sıravi Kolesnikov Fedor Fedoroviç 1944, Novo-Anen rayonu.

115. Sıravi Quliyev Əli Salman oğlu 1908-1944, Novo-Anen rayonu.

116. Sıravi Məmmədov Məmməd (Bakı) 1918-1944, Novo-Anen rayonu.

117. Çavuş Sadıqov Maqsud Rəhim oğlu (Bakı) 1925-1944, Novo-Anen rayonu.

118. Troşin Konstantin İvanoviç (Bakı, Balaxanı)1915-1944, Novo-Anen rayonu.

119. Kiçik çavuş Əyyubov Əhməd Əhməd oğlu (Şamaxı) 1920-1944, Novo-Anen rayonu.

120. Əliyev Şeylyar 1920-1944, Speya kəndi.

121. Sıravi Əliyev Hüseynqulu Həsən oğlu (Ağcabədi) 1914-1944. Speya kəndi.

122. Çavuş Bilalov Bilal Şeremetoviç (Zaqatala, 2-ci Tala), 1925-1944, Speya kəndi.

123. Kapitan Qaydadin Nikolay Aleksandroviç (Bakı) 1904-1944, Speya kəndi.

124. Leytenant Hüseynov Rüstəm Ağa oğlu (Bakı) 1903-1944, Speya kəndi.

125. Çavuş Cəfərov Bəhram İsrafil oğlu (Ağcabədi) 1912-1944, Speya kəndi.

126. Çavuş Zavarov Tyuldin Qaliloviç (Bakı) 1915-1944, Speya kəndi.

127. Sıravi İbrahimov Məmmədağa (Gəncə) 1914-1944, Speya kəndi.

128. Sıravi İsmayılov İsmayıl (Oğuz) 1920-1944, Speya kəndi.

129. Sıravi İsrafilov Bayram (Bərdə) 1904-1944, Speya kəndi.

130. Sıravi Kadjaev Paraxkan Ajan (Qusar) 1921-1944, Speya kəndi.

131. Çavuş Məmmədov İzzət (Ağdam) 1905-1944, Speya kəndi.

132. Sıravi Şturbabin Vasiliy Sidoroviç (Bakı) 1907-1944, Speya kəndi.

133. Tibb xidməti leytenantı Zeynalov Yaqub Seyfulla oğlu (Buzovna) 1908-1944, Novo-Anen rayonu, Teliça kəndi.

134. Gizir Yusifov Alma Yusup oğlu (Ağdaş), 1911-1944, Şerpen kəndi, Novo-Anen rayonu, Teliça kəndi.

135. Çavuş Abbasov Əliabbas (Cəlilabad) 1919-1944, Şerpen kəndi,Novo-Anen rayonu.

136. Abuşov Yusup (Bakı) 1899-1944, Şerpen kəndi, Novo-Anen rayonu.

137. Çavuş Əsgərov Abat Maksimoviç (Goranboy) 1922-1944, Şerpen kəndi,Novo-Anen rayonu

138. Sıravi Bakaliyev Balaxaş (Şamaxı) 1906-1944, Şerpen kəndi, Novo-Anen rayonu

139. Kiçik çavuş İbrahimov Ağa (Qəbələ) 1922-1944, Şerpen kəndi, Novo-Anen rayonu.

140. Sıravi İbadov Məmməd Əli oğlu (Kürdəmir) 1924-1944, Şerpen kəndi, Novo-Anen rayonu.

141. Sıravi İsrafilov İbiş Əli oğlu 1918-1944 Şerpen kəndi, Novo-Anen rayonu.

142. Kolodin İvan Timofoyeviç (Gədəbəy) 1925-1944 Şerpen kəndi, Novo-Anen rayonu.

143. Yefreytor Məhərrəmov Məmmədvəli Cəbrayıloğlu (Qazıməmməd) 1923-1944 Şerpen kəndi, Novo-Anen rayonu.

144. Sıravi Mərdanov Mərdan Hümbət oğlu (Bakı) 1909-1944 Şerpen kəndi, Novo-Anen rayonu.

145. Çavuş Mürvətov Zərbəli Baba oğlu (Bakı) 1921-1944 Şerpen kəndi, Novo-Anen rayonu.

146. Rüstəmov Muxtar Abbas oğlu (Naxçıvan 1901-1944 Şerpen kəndi, Novo-Anen rayonu.

147. Tuybaev Cembay (Bakı) 1909-1944 Şerpen kəndi, Novo-Anen rayonu.

148. Sıravi Uğurliyev Hüseyn (Zərdab) 1925-1944 Şerpen kəndi, Novo-Anen rayonu.

149. Yefreytor Əliyev Baxor Əmiroviç (Bakı) Orqeyev şəhəri.

150. Sıravi Komedov Momed Sokiroviç 1912-1944 Orqeyev şəhəri.

151. Sıravi Əbdürrəhmanov Muxtar Xəlil oğlu (Ucar) 1920-1941 Orqeyev rayonu.

152. Borisov Timofey Pavloviç (Xızı) 1922-1944 Orqeyev rayonu.

153. Sıravi Heydərov Əjdər (Qonaqkənd) 1912-1944 Orqeyev rayonu.

154. Sıravi Mirzəbəyov Boris Petroviç (Bakı, Əhmədli) 1944 Orqeyev rayonu.

155. Baş leytenant Boşaev Prokofiy Matveyeviç (Lənkəran) 1914-1944 Slobodzeya şəhəri.

156. Leytenant Əbdürrəhmanov Nəzər Əliqulu oğlu (Bakı) 1912-1944 Slobodzeya şəhəri.

157. Çavuş Əliyev İsmayıl Həbib oğlu (Ağcabədi) 1923-1944 Slobodzeya şəhəri.

158. Sıravi İfafilov Nikolay Xaritonoviç (Zaqatala) 1920-1944 Slobodzeya şəhəri.

159. Sıravi Namazov Yunis (Goranboy) - 1944 Slobodzeya şəhəri.

160. Sıravi Qasımov Əbdül (Bakı) 1923-1944 Slobodzeya rayonu.

161. Çavuş Rzayev Səftər (Şüvəlan) 1900-1944 Slobodzeya rayonu.162. Nedeyaxov Yassı (Şabran) 1907-1944 Slobodzeya rayonu.

163. Rzayev Ələkbər (Xəzər ray, Qala qəs) 1917-1944 Slobodzeya rayonu.

164. Çavuş Şilin Nikolay İliç (Bakı) 1921-1944 Slobodzeya rayonu.

165. Sıravi Alaxverdov Vaqaşa Xazraeviç (Dərbənd) 1944 Slobodzeya rayonu.

166. Kiçik leytenant İbrahimov Ramazan Əbdülmöhsün oğlu 1916-1944 Slobodzeya rayonu.

167. Çavuş Kaçanov Vladimir Efimoviç (Bakı) 1922-1944 Slobodzeya rayonu.

168. Hərbi feldşer Mirzəyev Həsən Hüseyn oğlu (Naxçıvan) 1917-1944, Slobodzeya rayonu.

169. Baş çavuş Mixedov Aleksandr Antonoviç (Salyan) 1907-1944 Slobodzeya rayonu.

170. Baş çavuş Mustafayev Sabir Məhəmməd oğlu (Bakı) 1922-1944 Slobodzeya rayonu

171. Talıbov Sayad (Masallı) 1897-1944 Slobodzeya rayonu.

172. Behbudov Faxdat Abbasqulu oğlu (Naxçıvan, Şahbuz) 1908-1944 Voynovo kəndi.

173. Baş çavuş Bornyaşev Mixail Andreyeviç (Xaçmaz) 1923-1944 Voynovo kəndi.

174. Sıravi Qədirov Ağalar (Daşkəsən) 1925-1944 Voynovo kəndi.

175. Sıravi Rüstəmov Əli Məhərrəm oğlu (Cəbrayıl) 1915-1944 Voynovo kəndi.

176. Sıravi Salmanov Musanıx (Qonaqkənd) 1925-1944 Voynovo kəndi.

177. Sıravi Farajev Slav (Qazıməmməd) 1925-1944 Teleneşt rayonu.

178. Leytenant Həsənov Qəni Həsən oğlu (Bakı, Ramana) 1908-1941 Ungen rayonu.

179. Sıravi Askirov Adij Afimoviç (Bakı) 1906-1944 Ungen rayonu.

180. Balaşov Nikolay İvanoviç (Bakı) 1910-1944 Ungen rayonu.

181. Sıravi Qardaşov Ayaz Gülverdi oğlu (Cəlilabad) 1944 Ungen rayonu.

182. Leytenant Tereşin Stepan Yeqoroviç (Bakı) 1917-1941 Ungen rayonu.

183. Sıravi Hüseynov Ağahacı (Cəlilabad) 1908-1944 Floreşt rayonu.

184. Sıravi Sadıqov Ağa Mahmud oğlu (Bakı) 1910-1944 Xınçeştı rayonu.

185. Sıravi Yusupov Maxiyazin Musaeviç (Bakı) 1898-1944 Xınçeştı rayonu.

186. Kiçik çavuş Vinokurov Semen Timofeyeviç (Bakı) 1907-1944 Xınçeştı rayonu.

187. Yefreytor Poluboyarinov Qeorgiy Konstantinoviç (Bakı) 1907-1944 Xınçeştı rayonu.

188. Kiçik çavuş Musayev Əhməd Paşa oğlu (Tovuz) 1921-1944 Xınçeştı şəhəri.

189. Sıravi Mahmudov İsmayıl (Bakı) 1924-1944, Xınçeştı şəhəri.

190. Sıravi Şirinov Həşim (Ağcabədi) 1921-1944 Fetiça kəndi.

191. Sıravi Abdullayev İbrahim Adil oğlu 1922-1944 Ştefan-Vod rayonu.

192. Sıravi Tağıyev Asəf İsa oğlu (Tovuz) 1918-1944 Ştefan-Vod rayonu.

193. Sıravi Klimenko Qriqoriy Qriqoryeviç (Quba) 1909-1944 Ştefan-Vod rayonu.

194. Sıravi Skrıl Nikolay Matveyeviç (Şirvan) 1896-1944 Ştefan-Vod rayonu.

195. Fətəli Mayıl oğlu (Bakı, Balaxanı) 1906-1944 Ştefan-Vod rayonu.

196. Kiçik çavuş Ələsgərov Zərif Senatoviç (Bakı) 1904-1944 Ştefan-Vod rayonu.

197. Sıravi Kodqonov Aleksandr Nikolayeviç (Bakı) 1944 Ştefan-Vod rayonu.

198. Kulikov Fedor Nikolayeviç (Bakı) 1900-1944 Ştefan-Vod rayonu.

199. Sıravi Məmmədov Məmməd Rafil (Bərdə) 1921-1944 Ştefan-Vod rayonu.

200. Sıravi Muradov Zülfiqar (Neftçala) 1912-1944 Ştefan-Vod rayonu.

201. Sıravi Radionov Aleksandr Nikolayeviç (Bakı) 1900-1944 Ştefan-Vod rayonu.

202. Kapitan Səfərov Əli İsmayıl oğlu (Biləsuvar) 1907-1944 Ştefan-Vod rayonu.

203. Feyzullayev Mirzalı (Şəki) 1903-1944 Ştefan-Vod rayonu.

204. Sıravi Mirzəyev Əkbər Əhliman oğlu (Bakı) 1924-1944 Ştefan-Vod rayonu.

205. Botyakin İvan Stepanoviç (Bakı) 1911-1944 Ştefan-Vod rayonu.

206. Sıravi Hüseynov Hacı (Dərbənd) 1922-1944 Yaloven rayonu.

# VETERANLARIN TİBB OCAQLARINA TƏŞƏKKÜRLƏRİ

Azərbaycanda bu gün gözəl tibb ocaqları vardır. Belə tibb müəsisələrindən biri və daha doğrusu birincisi Daxili İşlər Nazirliyinin tərkibindəki A.Heydərov adına hospitaldır. Adı çəkilən hospitalda DİN rəhbərliyi tərəfindən tibbin bütün sahələri üzrə müalicə imkanları yaradılıb və eyni zamanda müasir dövrün ən yüksək tibbi inventorları ilə, tələb olunan aparaturalar ilə tam təchiz olunub. Ən kəskin xəstəliklər, ən ağır xəstələr buradakı təcrübəli həkim-professor kontingentinin yüksək bacarıq və səyi nəticəsində nicat tapır, tam sağlam həyata qayıdır.

Bütün bunları qələmə almağa məni bu günlər sözügedən hospitalın nevroloji şöbəsində aldığım ən yüksək müalicənin effektini görməyim, eyni zamanda, həkim peşəkarlığının, həkim mədəniyyətinin şahidi olmağım vadar etdi. Yeri gəlmişkən hospitalın rəisi, polis polkovniki Ramiz Əkbərovun, müalicə üzrə rəis müavini polkovnik-leytenant İsbi Balaxanov, nevrologiya şöbəsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Aygün Quliyevanın, qəbul şöbəsinin rəisi, tibb xidmət mayoru Rəna Əhmədovanın, şöbənin həkim-nevropotoloqu Emilya Kəngərlinin, cərrahiyyə şöbəsinin ali dərəcəli cərrah həkimi Bəhris Zeynalovun, həmin şöbənin tibb bacısı Reyhan Həsənovanın, 14 saylı kabinetin həkim-nevropotoloqu Nüşabə Əliyevanın və başqalarının adlarını qeyd etmək istəyirəm. Onu da əlavə etmək istəyirəm ki, hospitalda çalışan bütün həkim-tibb personalı DİN rəhbərliyi tərəfindən seçilmiş yüksək tibbi və insani keyfiyyətləri olan kollektivdir. Mənə və digər müalicə alan xəstələrə göstərdikləri diqqət və qayğıya görə sonsuz təşəkkürümü və minnətdarlığımı bildirirəm.



**YƏHYA AĞAYEV,**
**Nizami rayon Veteranlar Təşkilatının sədri**

İlk gündən Mərdəkan Veteranlar Pansionatına gəlişimizdə oranın abu-havası mənim də, veteranlarımızın da çox xoşuna gəldi. Həkimlərin xoş, gülər üzü veteranlara böyük stimul verərək, onların tez sağlamlığına qovuşmasında böyük rol oynamışdır. Veteranların müalicəsində gözəl xidmət göstərən həkimlərdən: Nailə Nəbizadə, Natella Əsgərova, tibb bacıları, xüsusilə qey etmək istəyərdim. Onların xəstələrə qarşı qayğıkeşliyi, səmimi rəftarı xoş təəssürat bağışlayırdı.

Ümid edirəm ki, növbəti gəlişlərimizdə daha da razı qalacağıq və veteranlarımız daima sizin sayənizdə sağlam olacaqlar. Bir daha veteranlar adından xəstəxana rəhbərliyinə və bütün həkimlərə dərin təşəkkür bildirirəm.



**NƏCİBƏ MƏHƏRRƏMOVA,**
**Xətai rayon Veteranlar Təşkilatının sədri**

Mərdəkanda yerləşən Veteranlar Xəstəxanasının bütün həkim heyətinə təşəkkür və minnətdarlığımı bildirirəm. Xüsusilə, Süleyman həkimə, Gülşən həkimə çox sağolun deyirəm ki, mənimlə, sağlıq problemlərimlə çox yaxından maraqlandılar və müalicə etdilər. Yaşlı insan üçün qayğı çox vacibdir. Mən bu qayğını, diqqəti müalicə aldığım zamanda gördüm. Tibbi sahəmiz inkişaf edir və bu çox sevindirici haldır.

**Veteran BAĞIROV MÜSEYİB**

# Kürdəmir RVT-na yeni sədr seçilmişdir

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı mütəmadi olaraq bölgələrdə tədbirlər, görüşlər, iclaslar keçirir. Veteranların sosial şəraitinin yaxşılaşdırılması, onlara hər cür diqqət və qayğının göstərilməsi üçün lazımi tədbirlər həyata keçirir.



07 noyabr 2016-cı il tarixində Kürdəmir rayonunda Respublika Veteranlar Təşkilatının əməkdaşlarının, Kürdəmir rayon icra aparatının nümayəndələrinin, ziyalıların və veteranların iştirak etdiyi iclasda Kürdəmir rayon Veteranlar Təşkilatına yeni sədr-Ağayev Əli Əhməd oğlu və yeni müavin Dadaşov Fərəc Balabəy oğlu seçilmişdir. Yeni seçilmiş heyətə işlərində uğurlar arzu edirik.

# "Əlillər Dünyası" qəzeti və QHT əməkdaşları İmişli rayonunda olmuşlar



"Əlillər Dünyası" qəzeti və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin əməkdaşları İmişli rayonunda yaşayan Qarabağ əlilləri və digər kateqoriyadan olan əlillərlə, azadlığa yenicə çıxmış məhbuslarla, eləcə də imtiyazlı məhbusların öz müraciətləri əsasında onların ailələri ilə görüş keçirmişlər. Hər iki təşkilatın əməkdaşları bu aztəminatlı, köməyə ehtiyacı olan ailələrin sosial vəziyyətləri ilə yerindəcə maraqlanmış, xüsusi qeydlər aparmış və onların öz xahişləri ilə elə həmin gün də "Əlillər Dünyası" qəzeti vasitəsi ilə onların sosial problemlərinin həlli ilə bağlı İmişli Rayon İcra Hakimiyyətinə rəsmi müraciət olunmuşdur.

Bundan başqa həmin imkansız ailələrə ərzaq yardımı da edilmişdir.

***"Əlillər Dünyası"***

# Allah rəhmət eləsin

Respublika Veteranlar Təşkilatının rəyasət heyəti Tərtər rayon Veteranlar Təşkilatının sədri İman Almuradovun anası **Gövhər xanımın** vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Masallı rayon Veteranlar Təşkilatının sədri Məmmədağa Şiriyev və təşkilatın kollektivi Ələşrəf Niftiyevin həyat yoldaşı **Səmayə xanımın** vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Gəncə şəhər Veteranlar Təşkilatının sədri Yusif Məmmədov və təşkilatın kollektivi **Əlizadə Ələsgər İsmayıl oğlunun** vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazılışı başlamışdır!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7 AZN**
**1 illik abunə haqqı - 14 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**

**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
***Məsul katib***
*Səidə ABDULLAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu: 012** 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 50 qəpik*
*Tiraj: 1250*